UOT 37.01.

***Həddiqə Alı qızı Mayılova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ BACARIQLARIN FORMALAŞDIRILMASININ VƏZİFƏLƏRİ VƏ ƏHƏMİYYƏTİ

***Хадига Алы гызы Майылова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# РОЛЬ И ВАЖНОСТЬ ФОРМИРОВАНИЯ НАВЫКОВ ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Khadigha Ali Mayilova,***
*Azerbaijan State Pedagogical University*

# THE ROLE AND İMPORTANCE OF THE FORMATİON OF SKİLLS İN TEACHİNG AZERBAİJANİ HİSTORY

**Xülasə:** Pedaqoji sahədə bacarıqlar müxtəlif əsaslarla təsnif olunurlar. Ümumi və xüsusi bacarıqlar mövcuddur. Tədris prosesində tarix müəllimi bu və ya digər bacarıqlarla işləməli, lakin spesifik bacarıqlara, yəni tarixi prosesin mahiyyətini dərk etməyə imkan verən intellektual və praktiki bacarıqlara daha çox diqqət yetirməlidir.
***Açar sözlər****: bilik, bacarıq, vərdiş, tarix, metodika, təfəkkür*

**Резюме:** Умения в педагогической области классифицируются разными способами. Существуют общие и особые умения. В процессе обучения учитель истории должен работать над этими или другими умениями, но должен обратить больше внимания специфическим умениям, практическим материалам, которые помогают понять суть исторического процесса.
***Ключевые слова:*** *умение, навык, привычка, история, методика, мышление*

**Summary:** Skills are classified in various bases in pedagogical field. There exist special and general skills. During the study process a history teacher is supposed to deal with either these or those skills. However, he or she is required to pay more attention to specific skills with intellectual and practical skills which make it possible to comprehend the significance of historical process.
***Key words:*** *knowledge, abilities, habits, history, method, mentality*

Təhsilin dünya standartları səviyyəsində qurulmasına, dünya təhsil sisteminə inteqrasiya edilməsinə zəmin yaradan tədbirlər kompleksi həyata keçirilmişdir. Buna uyğun olaraq son illər təhsilin məzmununda da ciddi dəyişikliklər baş vermişdir. Belə ki, şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırmaqdan, onları həyati bacarıqlar əldə etməyə, bir sözlə, fəal və məhsuldar əməyə hazırlamaq ön plana çəkilmişdir. Hər bir şəxsə davamlı təhsil vermək nəzərdə tutulmuşdur. "Davamlı təhsil odur ki, ilkin mərhələdə qazandığı biliklər ömür boyu davam etsin. Şəxsiyyətyönlü təhsil isə insana çoxlu biliklər deyil, ən zəruri biliklər və onların əsasında həyati bacarıqlar verməkdən ibarətdir. Bu bacarıqlar elə xarakterdə olmalıdır ki, onlar daim şəxsiyyəti müşayiət etsin, həmişə ona lazım olsun, onun inkişafına təkan versin" (1, s. 5).

Metodik ədəbiyyatda bacarığa "...şüurlu və dəqiq hərəkətlərə (əqli və təcrübi) hazırlıq dərəcəsi və ya dəyişkən şəraitdə bilik və vərdişlər əsasında fəaliyyət məqsədinə nail olmaq bacarığı" kimi tərif verilir. Şagirdlərdə bacarıq formalaşdırmaq üçün bir sıra əqli əməliyyatlardan və praktiki hərəkətlərdən ibarət olan tədris-idrak fəaliyyətinin müəyyən üsulunun onlar tərəfin-

dən mənimsənilməsinə kömək etmək lazımdır. Fəaliyyət üsulları yalnız bacarıqda deyil, həm də vərdişlərdə reallaşır. Metodik ədəbiyyatda vərdişlər köməkçi rol oynayan və mürəkkəb bacarıqların tərkibinə daxil olan avtomatlaşdırılmış hərəkətlər kimi nəzərdən keçirilir (misal üçün, rəvan oxuma, dərsliyin mündəricatı ilə iş, kataloqla davranış və sair). Digər ədəbiyyatda göstərilir ki, bacarıq fəaliyyətdə olan bilikdir, öyrənilənlərin təcrübəyə tətbiqi üsul və priyomlarına yiyələnməyi nəzərdə tutur və qazanılmış bilikləri tətbiq edə bilmək səriştəsidir.

Başqa bir ədəbiyyatda deyilir ki, "bacarıq dedikdə qarşıya çıxan problemləri həll etmək üsullarına yiyələnməkdə ən yüksək pillə başa düşülür. Bacarığa şüurlu və dəqiq fəaliyyətə hazır olmaq kimi tərif verənlər də var. Bacarıq vərdişə nisbətən daha çox şüurlu olması ilə fərqlənir ".

Yuxarıda sadalanan təriflərin məzmununa nüfuz etdikdə aydın olur ki, hər üç tərəfin məzmununda və quruluşunda azacıq fərq olmasına baxmayaraq, mahiyyət etibarı ilə eynidir.

Bacarıqların formalaşdırılması üzrə işə başlayarkən onların məzmunun nədən ibarət olduğunu müəyyənləşdirmək lazımdır. Bununla, ilk növbədə, psixoloqlar məşğul olurlar. Bacarıq və vərdişlərin formalaşdırılmasına, habelə onların nisbətinə dair iki nöqteyi-nəzər mövcuddur. Vərdiş - avtomatlaşma dərəcəsinə çatmış bacarıqdır. Bacarıq tədricən vərdişə keçir. Deməli, tədris prosesində, eyni zamanda, bacarıq və müvafiq vərdiş spesifik növü olan dərsliklə işin təşkili (əsas fikri tutmaq, anlayışların mahiyyətini izah etmək, materialı təhlil etmək və sistemləşdirmək, plan tərtib etmək, sxemləri, diaqramları və digər sxematik materialları oxumaq və s.). İkinci nöqteyi-nəzər qulaq asmaq yolu ilə mənimsənilən mətnlərlə və audivizual mənbələrlə iş (müəllimin mühazirəsini, şagirdin məruzəsini dinləmək, radio və televiziya vasitəsilə ötürülən informasiyanı mənimsəmək və s.).

"Didaktika və psixologiya elmində şagirdlərin əsas bacarıq və vərdişlərinin bir neçə təsnifatı vardır. Şagirdlərin ümumi tədris bacarıq və vərdişlərinin inkişafına dair tövsiyələr də hazırlanmışdır. Burada bacarıq və vərdişlərin seçim meyarı kimi şagirdlərin müstəqil tədris, əmək və ictimai fəaliyyətə hazırlığında həmin vərdiş və bacarıqların əhəmiyyəti qəbul edilmişdir. Bütün tədris bacarıq və vərdişləri üç qrupda ümumiləşdirilib" (2, s. 89).

1. "Tədris əməyinin təşkili (iş yerinin hazırlanması, əqli əmək gigiyenasına əməl olunması) və tədris fəaliyyətinin strukturuna sahib olma. Dərs tapşırıqlarının dərk edilməsi, müstəqil işlərin qoyuluşu kimi şagirdlərdə bacarıqların formalaşdırılmasına, habelə tapşırığın yerinə yetirilməsinin planlaşdırılması. Tapşırığın rasional həlli üsulunun seçilməsi, dərs və ictimai işə nəzarət və onların müstəqil qiymətləndirilməsi üsullarının tətbiqi bacarıqlarına xüsusi diqqətin ayrılması.

2. Kitabla və tədris xarakterli informasiyanın digər mənbələri ilə iş (oxuma prosesinə, yəni məzmununa görə müxtəlif olan mətnlərin oxunulması. Oxuma texnikasının, tempinə, məqsədinə görə müəyyənləşdirmək, habelə informasiyanı götürərək sistemləşdirmək bacarığına yiyələnmək).

3. Şagirdlərin şifahi və yazılı nitq mədəniyyətinin xarakteristikası (müxtəlif xarakterli suallara cavab vermək, mətni yenidən danışmaq, materialı əlaqəli şəkildə şərh etmək, məlumata rəy bildirmək və s.)" (3, s. 220).

Şagirdlərin bacarıqlarını təşəkkül etdirmək işinin müvəffəqiyyəti bir çox şərtlərdən asılıdır. Tarix müəllimi, birinci növbədə, aşkar etməlidir ki, o, bu və ya digər sinifdə əvvəllər təşəkkül tapmış bilik və bacarıqların hansı dairəsinə istinad edə bilər, ayrı-ayrı şagirdlərdə hansı bacarıqlar zəif inkişaf etmişdir və yaxud heç yoxdur. Sonralar bunun əsasında müxtəlif şagirdlər qrupuna ayrı-ayrı məktəblilərə diferensial yanaşma üsulu qurulur.

"Müəllim iş prosesində şagirdlər tərəfindən əldə edilmiş bilik və bacarıqların səviyyəsini daim yoxlayır və nəzərə alır. O, şagirdlərə məlumat verir ki, onlar bu istiqamətdə nəyə nail olublar, bundan sonra nə üzərində iş aparmalıdırlar və işin hər bir mərhələsində onların qarşısında konkret vəzifələr qoyur" (5, s. 160).

Yadda saxlamaq lazımdır ki, eyni yaşdan və sinifdən olan şagirdlər üçün bacarıqların inkişaf səviyyəsi müxtəlifdir. Bu səviyyə həm şagirdlərin ümumi əqli inkişafından, həm də onların müəyyən istiqamətdəki təxmini hazırlığından və məşqindən asılıdır. Bacarıq və vərdişlərin formalaşması üçün çalışmalar sistemi əhəmiyyətli rola malikdir. Prof. B.A. Əhmədov ça-

lışmalar sistemindən istifadə olunması işinin aşağıdakı ardıcıllıqla təşkil olunmasını məqsədəuyğun sayır: 1) formalaşdırılan bacarıq və vərdişin əhəmiyyəti başa salınır; 2) zəruri biliklər yada salınır, formalaşdırılmış bacarıqlar reallaşdırılır (işə qoşulur); 3) təlimat verilir; 4) çalışma müəllimin yaxından iştirakı və ciddi nəzarəti altında icra edilir; 5) müstəqil çalışmalar yerinə yetirilir. O tövsiyə edir ki, yaradıcılıq bacarığının inkişafı baxımından biliyin yeni şəraitdə tətbiqi məsələsinə xüsusi fikir verilməlidir.

Müasir dövrdə intellektual bacarıqların formalaşdırılması sahəsində iki istiqamət aydın nəzərə çarpır. Birinci istiqamət xüsusi tapşırıqlar vasitəsilə şagirdlərdə intellektual bacarıqların formalaşdırılmasını nəzərdə tutur. Bu tapşırıqlar müxtəlif intellektual bacarıqların strukturunun modelləşdirilməsi prinsipi əsasında tərtib olunur. Şagirdlər onları yerinə yetirdikcə öz işinin məqsədini müəyyən etmək, bu baxımdan tədris materialını sistemləşdirmək, müstəqil surətdə material toplamaq, inşa yazmaq və s. kimi intellektual bacarıqlara yiyələnirlər. İnkişafetdirici təlim prinsipi baxımından bu yol səmərəli sayılır. Lakin ondan məqsədyönlü istifadə etmək üçün intellektual bacarıqların siniflər və fənlər üzrə sistemi və məzmunu əsaslı şəkildə işlənilməlidir. İkinci istiqamət. Xüsusi tapşırıqlarla intellektual bacarıqların formalaşdırılması prosesində müəllim həmişə istər-istəməz bir köklü sualla qarşılaşır: Görəsən, şagirdlər özlərinin idrak fəaliyyətinin xüsusiyyətlərini nə dərəcədə bilir? Müəyyən edilmişdir ki, inkişaf etdikcə uşaqlarda koqnitiv (idrak) proseslər haqqında müəyyən təsəvvürlər formalaşır. Onlar başa düşürlər ki, materialı yadda saxlamaq üçün müəllimə diqqətlə qulaq asmaq yada salmaq üçün isə xatırlamaq lazımdır. Şagirddə bu psixoloji proseslər haqqında təsəvvürlər aydın olanda, o, tapşırığın xarakterindən asılı olaraq bir halda diqqəti, başqa halda hafizəni fəallaşdırır. Bu prosesdə onun səriştəsi tədricən artır: o, məsələni həll etmək üçün yeni-yeni yollar axtarır. Şagird öz təfəkkürünün imkanlarına inananda çətinliklərdən çəkinmir, uğursuzluğa düçar olsa belə, fikirləşir və məsələni həll etməyə çalışır.

Bu prosesdə də onun özünə münasibəti dəyişir. Tapşırığı tələm-tələsik, başdansovdu deyil, səmərəli yollarla həll edir. P. Massen, C. Kencer, C. Koqan və A. Xyustonun fikrincə, qeyd olunan funksiyalar bütün uşaqlarda bu və ya digər dərəcədə inkişaf edir. Lakin onların inkişaf səviyyəsinə tərbiyə şəraiti mühüm təsir göstərir. Metaidrak funksiyaları yaxşı təşkil olunmuş şagirdlər tədris(idrak) tapşırıqlarını planauyğun və məqsədyönlü həll edirlər. Bu funksiyalar uğurlu təlimin zəruri şərtidir. Onları hər vasitə ilə inkişaf etdirmək lazımdır. Məsələnin aktuallığı elmi-metodik surətdə bütün aydınlığı ilə dərk edilməli və bu sahədə məktəbdə sistemli iş aparılmalıdır (6, s. 220).

Tədris sistemində biliyin möhkəmləndirilməsi, bacarıq və vərdişlərin formalaşdırılması üçün çalışmaların sistemləşdirilməsində aşağıdakı iki tezis məntiqi olaraq qəbul oluna bilər: 1. Möhkəmləndirmə işi mənimsəmə prosesinin mühüm mərhələlərində diqqət mərkəzində saxlanılmalıdır və yeni biliyin əldə olunmasında keçmiş təcrübənin, əldə olunmuşların zəruri hissəsinin seçilərək istifadə olunması, fəal işlənməsi həmin biliklərin möhkəmləndirilməsinin ən optimal yollarındandır. 2. Bacarıq və vərdişlər biliklərin müxtəlif növ tətbiqində formalaşır və inkişaf edir. Bu prosesdə bilik, bacarıq və vərdişlərin dialektik vəhdəti daha yaxşı təmin edilir və bu da onların inkişafını şərtləndirir. Belə ki, əvvəla, müvafiq biliyin biliklər sisteminə doğru irəliləməsi üçün mövcud bacarıq və vərdişlərin inkişafı ilkin şərt rolunda çıxış edə bilir. İkincisi, biliklərin standarta uyğun gəlməyən situasiyalarda tətbiqi isə yaradıcı bacarıq və müvafiq vərdişlərin formalaşmasına səbəb olur. Bu əsasdan biliyin möhkəmləndirilməsinə, bacarıq və vərdişlərin formalaşdırılmasına, reallaşmasına yönələn çalışmaların aşağıdakı sistemini məqbul saymaq olar: 1) nümunə üzrə icra edilən; 2) alqoritmlərə əsaslanan; 3) sistemləşdirici tələb qoyan; 4) alqoritmlərin tərtibini tələb edən; 5) variativ, yeni şəraitdə biliyi tətbiq etməyə yönələn; 6) yeni biliyin əldə olunması üçün zəruri biliklərin bərpasını və fəallaşdırılmasını tələb edən; 7) yeni biliyin əldə olunması üçün zəruri biliklərin bərpası tələb olunan və yeninin daxil edilməsi ilə yerinə yetirilən; 8) şagirdi yaradıcı işlərə yönəldən çalışmalar (7, s. 115).

**Problemin aktuallığı:** Müxtəlif elm sahələrinə aid bilik kütləsinin həcminin sürətli artdığı müasir dövrdə təlimin ənənəvi üsulları bilikləri mənimsəməyə, öyrənməyə imkan vermir. Bu isə yeni bacarıqların formalaşdırılması prosesində daha səmərəli təlim metodlarından istifadə etməyi tələb edir. Təlim

prosesində elə metodlardan istifadə etmək lazım gəlir ki, təhsil alanlar bilikləri müstəqil surətdə əldə etməyi bacarsınlar.

**Problemin elmi yeniliyi**: Mövzu ilə bağlı aparılan tədqiqat zamanı məlum olur ki, interaktiv metodlardan istifadə olunması təlimə cəlb olunanların təfəkkürünün müntəzəm inkişaf etdirilməsinə, bilik və bacarıqlarının müstəqil əldə olunmasına, dərsin maraqlı olmasına şərait yaradır, dərsə maraq artır, əldə edilmiş biliklərin daha uzun müddət yadda saxlanılması təmin edilir.

**Praktik əhəmiyyəti:** Mövzu üzərində iş zamanı əldə edilmiş nəticələr ümumtəhsil müəssisələrində tarix dərslərinin səmərəliliyinin yüksəldilməsində; təhsil alanların idrak fəallığının yüksəldilməsi, tənqidi və yaradıcı təfəkkürün formalaşdırılması, problemlərin həllində qərarların qəbul edilməsi bacarıqların formalaşdırılmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Bayramov Ə. S. Əlizadə Ə. Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.
2. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait. Bakı: "UNICEF", 2007.
3. Xəlilov S. S. Orta təhsilin məqsədi və məzmunu haqqında. Bakı: "Azərbaycan Universiteti", 2004.
4. Əmirov M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı: Yeni nəşr, 2011.
5. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı: ADPU-nun nəşri, 2009.
6. Əlizadə Ə. Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Pedaqogika. Bakı: Nurlan, 2004.
7. Paşayev T. S. Tarixin tədrisi. Tarixilik və müasirlik. Bakı: Nurlan, 2006.

**E-mail**: hesenova.1992@inbox.ru
**Rəyçilər***:* *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*dos*. A. Piriyeva.
**Redaksiyaya daxil olub:** 03.12.2018.